# AZƏRBAYCANDA SİYASİ MOTİVLİ İNZİBATİ HƏBSLƏRİN MONİTORİNQİ (2020-2021) - HESABAT



2022

DEMOKRATİK TƏŞƏBBÜSLƏR İNSTİTUTU
IDI
INSTITUTE FOR DEMOCRATIC INITIATIVES

# AZƏRBAYCANDA SİYASİ MOTİVLİ İNZİBATİ HƏBSLƏRİN MONİTORİNQİ (2020-2021) - HESABAT

Bakı - 2022

# Mündəricat

1. Xülasə ........ 3
2. Metodologiya ........ 3
3. Giriş ........ 4
4. Yerli qanunvericiliyin analizi ........ 4
5. İnzibati həbslərlə bağlı beynəlxalq qanunvericiliyin analizi ........ 8
6. İnzibati həbslərin statistikası ........ 10
7. Beynəlxalq qurumların reaksiyaları ........ 25
8. Nəticə və tövsiyələr ........ 27

# 1. Xülasə

Xüsusi metodologiya və müxtəlif monitorinq üsulları ilə hazırlanmış hesabat aşağıdakıları əhatə edir:

Sənədin giriş hissəsində inzibati həbsin anlayışı, inzibati həbsə səbəb olan hərəkətlər və inzibati həbsin müddəti əksini tapıb.

Sonrakı hissədə qanunvericiliyin analizi aparılıb. Bu hissədə inzibati həbslə bağlı yerli və beynəlxalq qanunvericilik təsvir və analiz edilib.

Növbəti hissədə 2020-2021-ci illərdə baş vermiş siyasi motivli inzibati həbslərin statistik analizi aparılıb. Analiz nəticələrinə əsasən demək olar ki, inzibati həbslər Bakı şəhərində regionlara nisbətən daha çox müşahidə edilir. İnzibati həbslər zamanı Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (İXM) 535.1-ci maddəsi (polis işçisinin qanuni tələbinə qəsdən tabe olmama) daha çox istifadə edilir.

Daha sonrakı hissədə beynəlxalq təşkilatların hesabatlarının monitorinqi aparılıb.

Hesabatın sonunda yekun nəticələr və tövsiyələr verilib. Tövsiyələr praktikada olan qüsurların aradan qaldırılmasına yönəlib.

# 2. Metodologiya

Hesabat Azərbaycan Respublikası İXM-nin şərhinə, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq və regional konvensiyalara, yerli və beynəlxalq təşkilatların hesabatlarına əsaslanır. Həmçinin hesabat media monitorinqi metodu və müxtəlif partiyalarla (AXCP, ADR, Müsavat) və Hərəkat üzvləri ilə (NİDA) əlaqə saxlayaraq onlardan birbaşa informasiya alınmaqla həyata keçirilmişdir.

Araşdırma zamanı yerli və beynəlxalq qanunvericiliyin təsviri və analizi aparılıb. Tendensiyanın istiqamətini doğru müəyyən etmək üçün 2 il ərzində (2020-2021) beynəlxalq təşkilatların hesabatları monitorinq edilib.

# 3. Giriş

Azərbaycan Respublikası İXM ilə qorunan ictimai münasibətlərə qəsd edən, hüquqazidd olan, təqsirli sayılan və inzibati məsuliyyətə səbəb olan əməl inzibati xəta hesab olunur. İnzibati həbs müstəsna hallarda 3 aya kimi verilən inzibati tənbeh növüdür[1]. Cinayət işindən fərqli olaraq inzibati həbslərə məruz qalmış şəxslər 3 gündən 90 günə qədər həbsdə saxlanıla bilər. Qanunvericilkdə müstəsna hallarda tətbiq edilməsinin nəzərdə tutulmasına baxmayaraq, Azərbaycanda inzibati həbslərin geniş yayılması və kütləvi tətbiq edilməsi bu mövzuda hesabatın hazırlanmasının vacibliyini ortaya çıxarıb.

# 4. Yerli qanunvericiliyin analizi

## 4.1. Azərbaycan Respublikası Konstitusiyası

Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinin 1-ci bəndinə əsasən hər kəsin azadlıq hüququ vardır. Sözügedənb maddənin 2-ci bəndində deyilir ki, azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər[2].

## 4.2. İnzibati Xətalar Məcəlləsi

Azərbaycanda inzibati həbslər İnzibati Xətalar Məcəlləsi ilə tənzimlənir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 12-ci maddəsinə[3] görə, İnzibati Xətalar Məcəlləsi ilə qorunan ictimai münasibətlərə qəsd edən, hüquqazidd olan, təqsirli sayılan (qəsdən və ya ehtiyatsızlıqdan törədilən) və inzibati məsuliyyətə səbəb olan əməl (hərəkət və ya hərəkətsizlik) inzibati xəta hesab olunur.

Qəsdən inzibati xəta törədən şəxs bilir ki, törətdiyi əməl hüquqaziddir, bunun zərərli nəticələri olacaq, bu nəticələrin olmasını istəyir və şüurlu surətdə bu zərərli nəticələrin baş verməsinə yol verir.

Ehtiyatsızlıqdan inzibati xəta törətmiş şəxs öz əməlinin zərərli nəticələr verə biləcəyi imkanını qabaqcadan görmüşdürsə, lakin onların qarşısını alacağına yüngül fikirlə ümid bağlamışdırsa, yaxud bu nəticələrin baş verəcəyini qabaqcadan görə bilməli olduğu halda, onları görməmişdirsə, bu xəta ehtiyatsızlıq üzündən törədilmiş xəta hesab olunur.

İnzibati Xətalar Məcəlləsinin 16-cı maddəsinin 1-ci bəndinə[4] əsasən inzibati xəta törədərkən on altı yaşı tamam olmuş fiziki şəxslər inzibati məsuliyyətə cəlb olunurlar. Yəni, şəxsin

[1] Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi, Maddə 30, https://e-qanun.az/framework/46960
[2] Azərbaycan Respublikası Konstitusiyası, Maddə 28, https://e-qanun.az/framework/897
[3] Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi, Maddə 12, https://e-qanun.az/framework/46960
[4] Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi, Maddə 16, https://e-qanun.az/framework/46960

inzibati xətaya görə məsuliyyətə cəlb edilməsi üçün onun 16 yaşı tamam olmalıdır, yaşı 16-dan aşağı olan şəxslərin inzibati məsuliyyətə cəlb olunması qanunvericilikdə nəzərdə tutulmayıb.

İnzibati həbs şəxsi qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək, habelə həm inzibati xəta törədən, həm də başqa şəxslər tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısını almaq məqsədi daşıyır. Əgər bu məqsədə xəbərdarlıq, cərimə tənbeh növlər ilə çatmaq mümkündürsə, şəxs həbs edilə bilməz. İnzibati həbs ancaq məhkəmələr tərəfindən həyata keçirilir. Polis və ya digər icra orqanı əməkdaşlarının inzibati xəta ilə bağlı protokol tərtib edərək vətəndaşı həbs etmək səlahiyyətləri yoxdur. İnzibati həbs zamanı vətəndaşın şəxsiyyəti nəzərə alınmalıdır.

İnzibati həbs, yalnız müstəsna hallarda, inzibati xətaların ayrı-ayrı növlərinə görə üç gündən üç ay müddətinədək müəyyən olunur və tətbiq edilir. Hamilə qadınlar və ya himayəsində on dörd yaşınadək uşağı olan qadınlar, on dörd yaşına çatmamış uşağını təkbaşına böyüdən kişilər, on səkkiz yaşına çatmayan şəxslər, orqanizmin funksiyalarının 61-80 faiz və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər, altmış yaşına çatmış qadınlar və altmış beş yaşına çatmış kişilər, habelə bu Məcəllənin 41-ci fəslində nəzərdə tutulmuş inzibati xətalar istisna olmaqla digər inzibati xətalara görə hərbi qulluqçular barəsində inzibati həbs tətbiq edilə bilməz.[5]

Məcəllədə qeyd olunan:

- xırda xuliqanlıq edildikdə, şəxs polis işçisinin, habelə hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmadıqda, yığıncaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşlərinin və piketlərin təşkili və keçirilməsi qaydasını pozduqda, ictimai işlər növündə inzibati tənbehin çəkilməsindən boyun qaçırdıqda, avaralıqla məşğul olduqda, ov, balıq və digər su bioresurslarının ovu və mühafizəsi qaydaları pozulduqda, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında qanunsuz qaldıqda;

- sərhədboyu zolaq, sərhəd buraxılış məntəqələrində rejimi pozulduqda;

- mühafizə edilən obyektlərə, digər dövlət əmlakına və ya ictimai əmlaka qəsd edilməsi ilə əlaqədar inzibati xətalar törədildikdə;

- yol hərəkəti qaydaları pozulduqda;

- fövqəladə vəziyyət rejimi pozulduqda;

- dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasının hüquqi rejiminin tələbləri pozulduqda, o cümlədən dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasında fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər olmadıqda, onların

[5] Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi, Maddə 30, https://e-qanun.az/framework/46960

şəxsiyyətinin müəyyən edilməsi məqsədilə və ya dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan şəxslərin qanuni tələblərinə mane olmağa yönəlmiş hərəkətlər törədildikdə;

- hərbi vəziyyət rejiminin tələbləri pozulduqda;

- əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən ölkədə olma qaydaları pozulduqda, yaxud onlar ölkə hüdudlarından kənara inzibati qaydada çıxarma haqqında qərarın icrasından boyun qaçırdıqda və ya belə boyun qaçırmanı ehtimal etməyə kifayət qədər əsaslar olduqda.

hallar hüquqazidd hərəkət kimi inzibati xəta hesab olunur və həmin hərəkətləri törədən şəxslərin barəsində inzibati məsuliyyət yaradır. İXM-nin xüsusi hissəsində nəzərdə tutulan əməllərə görə inzibati məsuliyyət o halda yaranır ki, bu əməllər cinayət məsuliyyətinə səbəb olmasın.

Yaranmış inzibati məsuliyyətin tənbeh növləri iki yerə ayrılır: Əsas və əlavə inzibati tənbeh növləri.[6] Əsas inzibati tənbeh növləri aşağıdakılardır:

- Xəbərdarlıq;
- İnzibati cərimə;
- İctimai işlər;
- İnzibati həbs.

İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi, fiziki şəxsə verilmiş xüsusi hüququn məhdudlaşdırılması, Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma isə həm əsas, həm də əlavə inzibati tənbeh növləri kimi tətbiq edilə bilər.

İnzibati həbsin müddət axımı, inzibati tutma anından başlayır. İnzibati qaydada tutma, yəni fiziki şəxsin azadlığının qısa müddətə məhdudlaşdırılması, inzibati xəta haqqında işin düzgün və vaxtında baxılmasının və ya inzibati xəta haqqında iş üzrə qərarın icrasının təmin edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsləri tərəfindən tətbiq edilir.[7] Başqa sözlə desək, inzibati qaydada tutma inzibati xəta haqqında iş üzrə icraatın təmin edilməsi tədbirlərindən biridir və inzibati xəta haqqında protokolla rəsmiləşdirilir. İnzibati qaydada tutma müddəti inzibati həbs müddətinə daxil edilir.

İnzibati xəta törətmiş şəxsin inzibati qaydada tutulması, bu Məcəllənin 89.2 – 89.4-cü maddələri istisna olunmaqla, üç saatdan çox ola bilməz[8]. İstisna hallarda tutma müddəti müəyyən araşdırma aparılması, şəxsiyyətin müəyyən edilməsi və bəzi inzibati xətalar üzrə işin mürəkkəbliyi və ya xəta törətmiş şəxslərin sayının çoxluğu ilə əlaqədar müvafiq olaraq 24 və yaxud da 48 saatadək uzadıla bilər. İzibati xəta törədənin şəxsiyyətini təsdiq edən sənədlər olmadıqda isə, hakimin qərarı ilə tutma üç günədək müddətə uzadıla bilər.

---

[6] Azərbaycan Respublikası İnzibati Xətalara Məcəlləsi, Maddə 22 və 23 https://e-qanun.az/framework/46960
[7] Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi, Maddə 88, https://e-qanun.az/framework/46960
[8] Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi, Maddə 89, https://e-qanun.az/framework/46960

Lakin praktikada ən çox pozulan norma, istisna halların olmamasına baxmayaraq, inzibati tutma müddətinin 3 saatdan artıq çox olmaması normasının pozulmasıdır.

# 5. İnzibati həbslərlə bağlı beynəlxalq qanunvericiliyin analizi

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin 2-ci bəndinə[9] əsasən "Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir".

Konstitusiyanın 148-ci maddəsinin 2-ci bəndinə[10] görə, "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir".

Beynəlxalq müqavilələrlə yerli qanunvericilik arasında ziddiyyət yarandıqda beynəlxalq müqavilələr əsas götürülməlidir (İstisna: Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar).

İnzibati həbslər azadlıq hüququnun məhdudiyyəti kimi beynəlxalq sənədlərlə və yerli qanunvericiliklə tənzimlənir. BMT-nin İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsi azadlıq hüququnu özündə əks etdirən ilk sənəddir. Sənəd hər nə qədər tövsiyə xarakterli olsa da, Bəyannəmənin 3-cü maddəsi[11] bəyan edir ki, hər bir şəxsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ var.

Ratifikasiya edən tərəflər üçün məcburi hüquqi qüvvəsi olan beynəlxalq sənəd, BMT tərəfindən qəbul edilmiş Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktdır. Azərbaycan Paktı 13 avqust 1992-ci ildə ratifikasiya etmiş və sənəd 13 noyabr 1992-ci il də qüvvəyə minmişdir.

Paktın 9-cu maddəsinin[12] 1-ci bəndinə görə, "Hər bir insan azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir. Heç kim özbaşınalıqla həbs edilə və ya dustaqda saxlanıla bilməz. Heç kim qanunla müəyyən edilən əsaslardan başqa və qanuni prosedura uyğun olmadan heç bir halda azadlıqdan məhrum edilməməlidir".

Paktın 9-cu maddəsinin[13] 2-ci bəndinə görə, "Həbs edilən hər bir kəsə həbs zamanı onun həbs olunmasının səbəbləri barədə məlumat verilir və irəli sürülən istənilən ittiham təcili qaydada ona bildirilir".

Paktın 9-cu maddəsinin digər bəndləri də həbs olunan zaman zəruri hüquqların müdafiəsinə dair məqamlara diqqət çəkir.[14]

[9] Azərbaycan Respublikasının Konstitusı, Maddə 12, https://e-qanun.az/framework/897
[10] Azərbaycan Respublikasının Konstitusı, Maddə 148, https://e-qanun.az/framework/897
[11] İnsan Hüquqlarının Ümumi Bəyannamə, Maddə 3, https://www.coe.int/az/web/compass/the-universal-declaration-of-human-rights-full-version-
[12] Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt, Maddə 9, https://migration.gov.az/content/pdf/5acb034968016_M%C3%BClki%20v%C9%99%20siyasi%20h%C3%BCquqlar%20haqq%C4%B1nda%20Pakt.pdf
[13] Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt, Maddə 9, https://migration.gov.az/content/pdf/5acb034968016_M%C3%BClki%20v%C9%99%20siyasi%20h%C3%BCquqlar%20haqq%C4%B1nda%20Pakt.pdf

Azərbaycan Respublikası baxımından ən mühüm sənəd isə Avropa İnsan Hüquqları Konvensiyasıdır[15] (Azərbaycan Konvensiyaya 25 dekabr 2001-ci ildə qoşulmuşdur).[16] Konvensiyanın 5-ci maddəsi azadlıq və şəxsi toxunulmazlıq hüququnu nəzərdə tutur. Qanunla müəyyən olunmuş konkret hallardan[17] başqa heç kim azadlıqdan məhrum edilə bilməz.

Avropa Konvensiyası yeganə beynəlxalq anlaşmadır ki, azadlığın hansı hallarda məhdudlaşdırıla biləcəyinin dəqiq siyahısını verib və bu siyahıda nəzərdə tutulan hallardan başqa, azadlıq hüququnun məhdudlaşdırılması Konvensiyanın pozuntusu kimi qiymətləndirilir.

14 https://migration.gov.az/content/pdf/5acb034968016_M%C3%BClki%20v%C9%99%20siyasi%20h%C3%BCquqlar%20haqq%C4%B1nda%20Pakt.pdf

15 Avropa İnsan Hüquqları Konvensiyası, Maddə 5, https://www.coe.int/az/web/compass/the-european-convention-on-human-rights-and-its-protocols

16 "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın və onun 1, 4, 6 və 7 saylı Protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu https://e-qanun.az/framework/1405

17 Avropa İnsan Hüquqları Konvensiyanın 5-ci maddəsi:
(a) səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra, şəxsi qanuni həbsə almaq;
(b)məhkəmənin qanuni çıxardığı qərarı icra etməməyə görə və ya qanunla nəzərdə tutulmuş hər hansı öhdəliyin icra olunmasını təmin etmək məqsədilə şəxsin qanuni tutulması və ya həbsə alınması;
(c) hüquq pozuntusunun törədilməsində əsaslı şübhə ilə bağlı şəxsin səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn və ya onun tərəfindən törədilən hüquq pozuntusunun yaxud törətdikdən sonra onun gizlənməsinin qarşısını almaq üçün kifayət qədər zəruri əsasların olduğunun hesab edildiyi hallarda şəxsin qanuni tutulması və ya həbsə alınması;
(d) yetkinlik yaşına çatmamış şəxsin tərbiyə nəzarəti üçün qanuni qərar əsasında həbsə alınması və ya onun səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn qanuni həbsə alınması;
(e) yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün şəxslərin, ruhi xəstələrin, alkoqolizmə və narkomaniyaya mübtəla olanların, səfillərin qanuni həbsə alınması;
(f) şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədilə və ya barəsində deportasiya yaxud ekstradisiya tədbirləri tətbiq olunan şəxsin qanuni tutulması və ya həbsə alınması

# 6. İnzibati həbslərin statistikası

İnzibati qaydada həbs edilənlərin dəqiq statistikasını əldə etmək mümkün olmasa da, Ədliyyə Nazirliyinin 2021-ci il üçün verdiyi məlumata əsasən qərarların icrasına maneçilik törədən, icra məmurlarının qanuni tələblərini yerinə yetirməyən 5700-dək şəxs inzibati məsuliyyətə cəlb edilib, o cümlədən 3.300-dən çox nəfər inzibati qaydada həbs olunub.[18] Görülmüş məcburi icra tədbirləri nəticəsində aliment, pul tələbi və digər ödəmələr üzrə məhkəmə qərarlarını icra etmiş 2600-dən artıq borclunun üzərindən ölkəni tərk etmək məhdudiyyəti götürülüb.

Pandemiya zamanı inzibati qaydada həyata keçirilmiş həbslər daha çox olsa da, bununla bağlı vahid statistika yoxdur.

İnzibati həbslərin nə qədərinin siyasi motivli olduğu ilə bağlı da dəqiq məlumat əldə etmək mümkün deyil. Bu istiqamətdə hər hansı ümumiləşdirilmiş statistika açıqlanmır. Lakin siyasi partiya və hərəkat üzvlərinin verdiyi məlumatlara nəzər salsaq, aydın şəkildə görə bilərik ki, inzibati həbslərin altında başqa maraqlar yatır.

## 6.1. 2020-2021-ci illər arasındakı siyasi motivli inzibati həbslər

**2020-2021-ci illərdə siyasi motivlərlə inzibati həbslərə məruz qalanların siyahısı:**

| No. | Ad Soyad | Tarix | İctimai və ya siyasi mənsubiyyəti | Qərarı verən məhkəmə və ya saxlanmanın baş verdiyi şəhər | İXM-nin maddəsi | Cəza/ sutka | İddia olunan motiv |
|---|---|---|---|---|---|---|---|
| 1. | Zamin Salayev[19] | 13.01. 2020 | AXCP | Səbail rayon Məhkəməsi | 535.1 | 30 | Sosial şəbəkədə paylaşdığı videoda polis məmurunu təcavüzdə ittiham etmək[20] |
| 2. | Məmməd İbrahim[21] | 26.02. 2020 | AXCP | Xətai rayon Məhkəməsi | 535.1 | 10 | Xocalı abidəsinə ziyarət |

[18] https://www.e-huquq.az/az/news/xeberler/43296.html

[19] https://www.azadliq.org/a/axcp-f%C9%99allar%C4%B1ndan-x%C9%99b%C9%99r-yoxdur/30374837.html Əldə edildi: 26 May 2022

[20] https://www.azadliq.org/a/zamin-salayev-mehkeme-axcp/31397163.html Əldə edildi: 2 İyun 2022

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 3. | Fuad İsmayılov[22] | 07.03.2020 | İctimai fəal | Suraxanı rayon Məhkəməsi | 206 | 60 | Seçki saxtakarlığına etiraz etmək və ictimailəşdirmək |
| 4. | Anar Məlikov[23] | 22.03.2020 | AXCP | Cəlilabad rayon Məhkəməsi | 211 | 10 | Sosial şəbəkədə karantin qaydalarının rüşvət mənbəyi kimi istifadə olunduğuna dair status paylaşmaq[24] |
| 5. | Samir Babayev[25] | 22.03.2020 | Müsəlman Birliyi Hərəkatı | Sabunçu rayon Məhkəməsi | 211 (və ya 535.1) | 30 | Metronun “28 May” stansiyasının qarşısında epidemiya əleyhinə mübarizə məqsədilə əhaliyə pulsuz maskalar və koronavirusdan qorunmağın yolları yazılmış bukletlər paylamaq |
| 6. | Şakir Məmmədov[26] | 06.04.2020 | ADR | Sumqayıt şəhər Məhkəməsi | 535.1 | 15 | Sosial şəbəkədəki fəaliyyət – hökumətin pandemiyaya qarşı aldığı tədbirləri tənqid etmək[27] |
| 7. | Faiq Əmirov[28] | 08.04.2020 | AXCP və “Azadlıq” qəzetinin direktoru | Səbail rayon Məhkəməsi[29] | 211 | 30 | Siyasi fəaliyyət |
| 8. | Ruslan Əmirov[30] | 09.04.2020 | AXCP | Nərimanov rayon | 211 | 30 | Siyasi fəaliyyət |

[21] https://www.azadliq.org/a/axcp-%C3%BCzvl%C9%99ri-saxlan%C4%B1b/30456315.html Əldə edildi: 26 May 2022
[22] https://gozetci.az/en/pozuntular/fuad-ismayilov-bar%c9%99sind%c9%99-h%c9%99bs-q%c9%99rari-cixarilib/ Əldə edildi: 26 May 2022
[23] https://www.azadliq.org/a/chebhechiye-10-sutka-verildiyi-deyilir/30502510.html Əldə edildi: 26 May 2022
[24] https://m.facebook.com/story.php?story_fbid=3401972523164338&id=100000548704348 Əldə edildi: 2 İyun 2022
[25] https://www.meydan.tv/az/article/inancli-feal-25-sutka-hebs-cezasi-alib/ Əldə edildi: 26 May 2022
[26] https://www.azadliq.org/a/siyasi-f%C9%99ala-15-sutka-verilib/30535417.html Əldə edildi: 26 May 2022
[27] https://twitter.com/Giorgi_Gogia/status/1250686267819536384?s=20 Əldə edildi: 26 May 2022
[28] https://www.azadliq.org/a/30569713.html Əldə edildi: 26 May 2022
[29] https://www.azadliq.org/a/faiq-%C9%99mirliy%C9%99-bir-ay-inzibati-h%C9%99bs-c%C9%99zas%C4%B1-verilib/30543874.html Əldə edildi: 2 İyun 2022
[30] https://www.azadliq.org/a/30569713.html Əldə edildi: 26 May 2022

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | Məhkəməsi[31] | | | |
| 9. | Vəfadar Əliyev[32] | 09.04.2020 | ADR | Binəqədi rayon Məhkəməsi | 535 | 30 | Siyasi fəaliyyət |
| 10 | Natiq İsbatov | 10.04.2020 | "7 gun. az" saytının müxbiri | Abşeron rayon Məhkəməsi | 535.1 | 30 | Xırdalan şəhərində narazılıq edən insanlarla bağlı video çəkiliş etmək |
| 11 | Nicat Abdullayev[33] | 10.04.2020 | AXCP | Binəqədi rayon Məhkəməsi | 535.1 | 30 | Siyasi fəaliyyət |
| 12 | Nəriman Abdulla[34] | 11.04.2020 | İctimai fəal | Lənkəran rayon Məhkəməsi | 211 | 10 | "Facebook"da aztəminatlı təbəqənin karantin dövründəki durumuna görə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevi tənqid etmək[35] |
| 13 | İbrahim Vəzirov[36] | 12.04.2020 | "Kanal 24"-ün müxbiri | Şirvan şəhər Məhkəməsi | 535.1 | 25 | Karantin rejimi dövründə azərbaycanlıların üzləşdikləri çətinlikləri işıqlandırmaq (çəkdiyi görüntüləri silmək tələb olunub) |
| 14 | Hikmət Ağayev[37] | 12.04.2020 | Müsəlman Birliyi | Xətai rayon Məhkəməsi | 535.1 | 25 | - |

31 https://turan.az/ext/news/2020/4/free/politics_news/az/123067.htm/001 Əldə edildi: 2 İyun 2022
32 https://www.amerikaninsesi.org/a/jurnalist-h%c9%99bs-edilib-m%c3%bcxalif%c9%99t-t%c9%99nqidi-s%c9%99sl%c9%99rin-h%c9%99bsini-pisl%c9%99yir-/5367106.html Əldə edildi: 26 May 2022
33 https://www.azadliq.org/a/30546010.html Əldə edildi: 26 May 2022
34 https://www.meydan.tv/az/article/daha-bir-ictimai-feal-inzibati-hebs-cezasi-aldi/ Əldə edildi: 26 May 2022
35 https://www.facebook.com/photo/?fbid=3405079399506680&set=a.1348708901810417 Əldə edildi: 26 May 2022
https://www.facebook.com/neriman.aeff/posts/2604013036554945 Əldə edildi: 26 May 2022
36 https://www.amerikaninsesi.org/a/az%c9%99rbaycanda-jurnalistl%c9%99r-v%c9%99-m%c3%bcxalif%c9%99t%c3%a7il%c9%99r-karantin-qaydalar%c4%b1n%c4%b1-pozmaq-ittiham%c4%b1-il%c9%99-h%c9%99bs-edilir/5376792.html Əldə edildi: 26 May 2022
37 https://www.meydan.tv/az/article/inancli-feal-25-sutka-hebs-cezasi-alib/ Əldə edildi: 26 May 2022

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | Hərəkatı | | | | |
| 15 | Baba Süleymanov[38] | 13.04.2020 | AXCP | Bakı şəhəri[39] | 211 | 30 | - |
| 16 | Mirsahib Ragiloğlu[40] | 13.04.2020 | Müxbir | | 211 | 20 | Karantin rejimi dövründə azərbaycanlıların üzləşdikləri çətinlikləri işıqlandırmaq |
| 17 | Niyaməddin Əhmədov[41] | 16.04.2020 | AXCP | Xətai rayon Məhkəməsi[42] | 211 və 535.1 | 30 | Siyasi fəaliyyət |
| 18 | Vüqar Əbilov[43] | 17.04.2020 | AXCP | Abşeron rayon Məhkəməsi | 535.1 | 20 | Siyasi fəaliyyət |
| 19 | İslam İslamzadə[44] | 17.04.2020 | AXCP | Nəsimi rayon Məhkəməsi | 211 və 535.1 | 30 | Siyasi fəaliyyət |
| 20 | Elgün Gəncimsoy[45] | 21.04.2020 | Müstəqil jurnalist | Ağdam rayon Məhkəməsi | 211 | 20 | Peşə fəaliyyəti[46] |
| 21 | Əvəz Əhmədov[47] | 22.04.2020 | AXCP | Xəzər rayon Məhkəməsi | 535.1 | 20 | Siyasi fəaliyyət[48] |

[38] https://www.meydan.tv/az/article/axcp-nin-daha-bir-feali-30-sutka-hebs-cezasi-aldi/ Əldə edildi: 26 May 2022
[39] https://lent.az/news/348064 Əldə edildi: 2 İyun 2022
[40] https://www.facebook.com/irfal.gulhan/posts/159267458895663 Əldə edildi: 26 May 2022
[41] https://www.meydan.tv/az/article/niyameddin-ehmedov-eli-kerimlinin-muhafizecisi-olduguma-gore-hebs-edilmisem/ Əldə edildi: 26 May 2022
[42] https://www.turan.az/ext/news/2020/4/free/politics_news/az/123654.htm/001 Əldə edildi: 2 İyun
[43] https://www.amerikaninsesi.org/a/axcp-f%C9%99al%C4%B1-h%C9%99bs-edilib-/5376290.html Əldə edildi: 26 May 2022
[44] https://www.azadliq.org/a/azadl%C4%B1q-qe%C9%99zetinin/30561782.html Əldə edildi: 26 May 2022
[45] https://www.facebook.com/vusalseid78/posts/1512183268956212 Əldə edildi: 26 May 2022
[46] https://www.facebook.com/rovshanasadi/posts/2849409311810095 Əldə edildi: 26 May 2022

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 22 | Arif Babayev[49] | 22.04.2020 | AXCP | Suraxanı rayon Məhkəməsi | 388.1.1.1. | 30 | Siyasi fəaliyyət – dövlətçilik əleyhinə paylaşımlarının qarşısını almaq[50] |
| 23 | Şəmsi Qəhrəmanov (Kəsəmənli)[51] | 24.04.2020 | AXCP | Abşeron rayon Məhkəməsi | | 15 | Sosial şəbəkədəki fəaliyyəti |
| 24 | Elvin Məmmədov[52] | 04.05.2020 | AXCP | Qaradağ rayon Məhkəməsi | 211 | 30 | AXCP sədri Əli Kərimlinin ad gününə şeir yazmaq |
| 25 | Ramid Nağıyev[53] | 06.05.2020 | AXCP | Nizami rayon Məhkəməsi | 211 | 30 | Siyasi fəaliyyət |
| 26 | Ceyhun Rzayev[54] | 09.05.2020 | AXCP | Mingəçevir şəhər Məhkəməsi | 535.1 | 10 | Məhəmməd Əmin Rəsulzadənin portretini küçədə asmaq |
| 27 | Elxan Əliyev[55] | 09.05.2020 | AXCP | Nərimanov rayon | 211 və 535.1 | 30 | Siyasi fəaliyyət[56] |

[47] https://www.amerikaninsesi.org/a/axcp-nin-iki-f%C9%99al%C4%B1-saxlan%C4%B1l%C4%B1b-/5385454.html Əldə edildi: 26 May 2022
[48] https://turan.az/ext/news/2020/4/free/politics_news/az/123445.htm/034 Əldə edildi: 26 May 2022
[49] https://www.amerikaninsesi.org/a/axcp-nin-iki-f%C9%99al%C4%B1-saxlan%C4%B1l%C4%B1b-/5385454.html Əldə edildi: 26 May 2022
[50] https://www.facebook.com/azadliqqazeti/posts/3073158622740274 Əldə edildi: 2 İyun 2022
[51] https://www.amerikaninsesi.org/a/axcp-f%C9%99al%C4%B1-h%C9%99bs-edilib-/5391996.html Əldə edildi: 26 May 2022
[52] https://www.amerikaninsesi.org/a/axcp-f%C9%99al%C4%B1-h%C9%99bs-edilib-/5404388.html Əldə edildi: 26 May 2022
[53] https://www.azadliq.org/a/axcp-c%C9%99bh%C9%99%C3%A7iy%C9%99-30-sutka-verilib/30599019.html Əldə edildi: 26 May 2022
[54] https://www.amerikaninsesi.org/a/axcp-f%C9%99al%C4%B1-h%C9%99bs-edilib-/5413706.html Əldə edildi: 26 May 2022
[55] https://www.amerikaninsesi.org/a/axcp-nin-iki-f%C9%99al%C4%B1-h%C9%99bs-edilib-daha-%C3%BC%C3%A7-f%C9%99al-is%C9%99-saxlan%C4%B1l%C4%B1b/5413071.html Əldə edildi: 26 May 2022
[56] https://www.azadliq.org/a/iki-cebhechinin-hebs-edildiyi-bildirilir/30603220.html Əldə edildi: 26 May 2022

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | Məhkəməsi | | | |
| 28 | Əliağa Məmmədov (Əli İmanxanlı)[57] | 09.05.2020 | AXCP | Nərimanov rayon Məhkəməsi | 211 və 535.1 | 30 | Siyasi fəaliyyət |
| 29 | Elvin İrşadov[58] | 19.05.2020 | Sosial şəbəkə istifadəçisi | Lənkəran rayon Məhkəməsi | 535.1 | 16 | Sosial şəbəkədəki fəaliyyəti |
| 30 | Fuad İsmayılov[59] | 22.05.2020 | İctimai fəal | Suraxanı rayon Məhkəməsi | 206 | 60[60] | Seçki saxtakarlığına etiraz olaraq MSK-nın binası qarşısındakı divara “Fu Məzi” yazmaq |
| 31 | Faiq Əmirov[61] | 25.05.2020 | AXCP | Sabirabad rayon Məhkəməsi | 510 | 15 | Siyasi fəaliyyət |
| 32 | Ruslan Əmirov[62] | 28.05.2020 | AXCP | Qaradağ rayon Məhkəməsi | 510 | 15 | Siyasi fəaliyyət |
| 33 | Rüstəm İsmayılbəyli[63] | 01.06.2020 | İctimai fəal | Nərimanov rayon Məhkəməsi | 211 və 535.1 | 15 | Təhsil Nazirliyi qarşısında aksiya |

[57] https://www.amerikaninsesi.org/a/axcp-nin-iki-f%C9%99al%C4%B1-h%C9%99bs-edilib-daha-%C3%BC%C3%A7-f%C9%99al-is%C9%99-saxlan%C4%B1l%C4%B1b/5413071.html Əldə edildi: 26 May 2022
[58] https://turan.az/cache/2020/Social/free/news-2020-5-free-Social-az-124161.htm Əldə edildi: 27 May 2022
[59] https://www.azadliq.org/a/msk-n%C4%B1n-qars%CC%A7%C4%B1s%C4%B1na-s%CC%A7u%CC%88ar-yazan-g%C9%99nc-t%C9%99cridxanada-s%C9%99h%C9%99r%C9%99-q%C9%99d%C9%99r-do%CC%88yu%CC%88ldu%CC%88nu%CC%88-deyir/30688152.html Əldə edildi: 26 May 2022
[60] https://www.facebook.com/watch/?v=580022386258145 Əldə edildi: 26 May 2022
[61] http://rakurs.tv/axcp-li-krimlinin-daha-bir-muhafizcisi-haqda-cinayt-isi-baslana-bilr.html Əldə edildi: 2 İyun 2022
[62] https://www.azadliq.org/a/30639869.html Əldə edildi: 26 May 2022

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 34 | Elşən Teymurov[64] | 02.06.2020 | Reper | Sabunçu rayon Məhkəməsi | 206.1 və 535.1 | 60 | Polisi sosial şəbəkədə tənqid etmək |
| 35 | Alik Aslanov[65] | 10.06.2020 | Müsəlman Birliyi Hərəkatı | İmişli rayon Məhkəməsi | 535.1 | 15 | Sosial şəbəkədəki fəaliyyəti[66] |
| 36 | Faiq Rəşidov[67] | 26.06.2020 | AXCP | İsmayıllı rayon Məhkəməsi | 388-1.1 | 10 | Siyasi baxışları və sosial şəbəkələrdə aktivliyi |
| 37 | Elşad Atayev[68] | 27.06.2020 | AXCP | İmişli rayon Məhkəməsi | 535.1 | 10 | Sosial şəbəkələrdə aktiv olması və hakimiyyəti tənqid etməsi |
| 38 | Qaçay Qafarov[69] | 04.07.2020 | AXCP | Göyçay rayon Məhkəməsi | 510 və 535.1 | 30 | Sosial şəbəkədə polislə bağlı yazdığı tənqidi status |
| 39 | Arif Paşayev[70] | 13.07.2020 | AXCP | Xətai rayon Məhkəməsi | 211.1 və 535.1 | 30 | "Tovuz döyüşləri" barədə sosial şəbəkədəki müzakirələrdə fəal iştirak |
| 40 | Elvin Bəhrəmov[71] | 14.07.2020 | AXCP | Masallı rayon | 535.1 | 15 | Masallıda şəhid mayor Anar Novruzovun dəfnində iştirak |

[63] https://d9mc3ts4czbpr.cloudfront.net/az/article/rustem-ismayilbeyli-saclarima-toxunmadan-buraxmayacaqlarini-dediler/ Əldə edildi: 27 May 2022
